

Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi

# İXRAC İCMALI

May 2021

iqtisadiislahat.org
info@ereforms.org

AZEXPORT.AZ
**Made in Azerbaijan**

“ÖLKƏMİZ AVROPA İLƏ ASİYANIN ARASINDA YERLƏŞİR. XÜSUSƏN DƏ İNKİŞAFIN SON İLLƏRİNDƏ ÖLKƏ İQTİSADİ SAHƏDƏ ÖZÜNÜ TAM TƏMİN ETMƏYƏ BAŞLAYIB. İQTİSADİ MÜSTƏQİLLİK ƏLDƏ OLUNUB.

BİZ TAM ANLADIQ Kİ, MARAQLAR OLA BİLƏR VƏ ONLAR BİR-BİRİ İLƏ TOQQUŞA BİLƏR. LAKİN BİZİM SİYASƏTİMİZ ONDAN İBARƏTDİR Kİ, AZƏRBAYCAN TOQQUŞMA MƏKANI DEYİL, ƏMƏKDAŞLIQ YERİ OLMALIDIR. BU, ƏSLİNDƏ, BELƏ DƏ BAŞ VERİR. BUNA GÖRƏ MƏN AZƏRBAYCANLA QONŞULAR VƏ YA BÖYÜK GÜCLƏR ARASINDA GƏLƏCƏKDƏ HƏR HANSI ÇƏTİNLİKLƏR GÖRMÜRƏM”.

İlham Əliyevin iştirakı ilə
Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin “Cənubi Qafqaz: Regional inkişaf və əməkdaşlıq perspektivləri” adlı videoformatda müzakirələrindən
20 may 2021



# MÜNDƏRİCAT


Qeyri-neft sektoru üzrə ixraca dair məlumat — səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi — səh. 10

2021-ci ilin yanvar-aprel aylarında "Azərkosmos" ASC 16,9 milyon ABŞ dolları dəyərində xidmət ixrac etmişdir — səh. 13

2021-ci ilin yanvar-aprel aylarında Azərbaycanda xaricilər bank kartları vasitəsi ilə 112,2 milyon manatlıq əməliyyat aparmışlar — səh. 14

Azexport.az portalına 2021-ci ilin yanvar-aprel aylarında 164,2 milyon ABŞ dolları məbləğində ixrac sifarişi daxil olmuşdur — səh. 16

2021-ci ilin may ayında "Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən 15,3 milyon ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir — səh. 19

# 1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT

2021-ci ilin **yanvar-aprel ayları** ərzində **Azərbaycanın ixracı** **6,4 milyard** ABŞ dolları dəyərində mal ixrac olunmuşdur

2021-ci ilin **yanvar-aprel aylarında** qeyri-neft sektoru üzrə ixrac **697 milyon** ABŞ dolları təşkil etmişdir

2021-ci ilin yanvar-aprel ayları ərzində Azərbaycanın ixracı 6,4 milyard ABŞ dolları olub. Qeyri-neft sektoru üzrə **697 milyon** ABŞ dolları dəyərində ixrac reallaşdırılıb. Qeyri-neft sektoru üzrə ixrac 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə **146 milyon** ABŞ dolları və ya **26,5 faiz** artıb.

2021-ci ilin aprel ayı ərzində ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında pambıq mahlıcı (27,8 milyon ABŞ dolları) birinci, qızıl (21,2 milyon ABŞ dolları) ikinci və pomidor (21 milyon ABŞ dolları) üçüncü olub.

Bu ilin yanvar-aprel ayı ərzində Türkiyəyə **216,2 milyon**, Rusiyaya **188,5 milyon**, İsveçrəyə **68,2 milyon**, Gürcüstana **53,5 milyon** və ABŞ-a 2**3 milyon** ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

2021-ci ilin yanvar-aprel ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında pambıq mahlıcı (96,4 milyon ABŞ dolları) birinci olub. Bu siyahıda qızıl ikinci (64,6 milyon ABŞ dolları), pomidor (tomat) isə üçüncü (42,3 milyon ABŞ dolları) yerdə qərarlaşıb. Statistikaya əsasən, digər mallar müvafiq olaraq, ilkin formalı polipropilen (37,1

milyon ABŞ dolları), qabığı təmizlənmiş meşə fındığı (34,7 milyon ABŞ dolları), xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen (33,6 milyon ABŞ dolları), xurma (31,9 milyon ABŞ dolları), elektrik enerjisi (23,2 milyon ABŞ dolları) və s. təşkil edir.

2021-ci ilin aprel ayında Azərbaycanın ümumi ixracı 3,2 milyard ABŞ dolları, qeyri-neft sektoru üzrə ixrac 195,4 milyon ABŞ dolları təşkil edib. Bu ilin aprel ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya (58,7 milyon ABŞ dolları) birinci yerə yüksəlib. Bu siyahıda Türkiyə ikinci (53,2 milyon ABŞ dolları) və İsveçrə üçüncü (23,3 milyon ABŞ dolları) olub.

Ümumiyyətlə, 2021-ci ilin yanvar-aprel ayları ərzində meyvə-tərəvəz ixracı 131,5 milyon, pambıq lifi ixracı 97 milyon, alüminium və ondan hazırlanan məmulatların ixracı 53 milyon, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 31,4 milyon, pambıq ipliyi ixracı 15,2 milyon, kimya sənayesi məhsullarının ixracı 13,1 milyon, şəkər ixracı 13,3 milyon, bitki və heyvan mənşəli piylər və yağlar ixracı 11,2 milyon, spirtli və spirtsiz içkilərin ixracı 5,1 milyon, bitki və çay ixracı 3 milyon ABŞ dolları təşkil edib.

MADE IN AZERBAIJAN

## 2021-ci ilin **YANVAR-APREL AYLARINDA** qeyri-neft sektoru üzrə **5 ƏSAS İXRAC ÖLKƏSİ**
(2020-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



## 2021-ci ilin **APREL AYINDA** qeyri-neft sektoru üzrə **5 ƏSAS İXRAC ÖLKƏSİ**
(2020-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



# 2021-ci ilin **YANVAR-APREL AYLARINDA** ixrac olunan əsas **QEYRİ-NEFT MALLARININ SİYAHISI**
(2020-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2021 İXRAC İCMALI MAY

| Mal | 2021 | 2020 |
|---|---|---|
| Pambıq mahlıcı | 96,4 | 44,3 |
| Qızıl | 64,6 | 43,7 |
| Tomat (pomidor) | 42,3 | 73,3 |
| İlkin formalı polipropilen | 37,1 | 26,5 |
| Qabığı təmizlənmiş meşə fındığı | 34,7 | 42,5 |
| Xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen | 33,6 | 16,3 |
| Xurma | 31,9 | 14,1 |
| Elektrik enerjisi | 23,2 | 34,3 |
| Alüminium ərintilərindən düzbucaqlı plitələr | 19,2 | 4,3 |
| Digər | 314,2 | 249,6 |

# 2021-ci ilin **APREL AYINDA** ixrac olunan əsas **QEYRİ-NEFT MALLARININ SİYAHISI**
(2020-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2021 İXRAC İCMALI MAY

| Məhsul | 2021 | 2020 |
|---|---|---|
| Pambıq mahlıcı | 27,8 | 1,5 |
| Qızıl | 21,2 | 7,4 |
| Tomat (pomidor) | 21 | 29,4 |
| Xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen | 12 | 3,6 |
| İlkin formalı polipropilen | 10,3 | 5,3 |
| Elektrik enerjisi | 7 | 16,4 |
| Qabığı təmizlənmiş meşə fındığı | 6,2 | 6,2 |
| İlkin formalı propilen sopolimerləri | 5,3 | 0,05 |
| Şəkər | 5,5 | 1,9 |
| Digər | 75 | 64 |












## APREL AYINDA ƏN ÇOX İXRAC EDİLƏN QEYRİ-NEFT SEKTORUNA AİD MALLAR (milyon ABŞ dolları ilə)

2021 İXRAC İCMALI MAY

### 2019

| Ay | Mal | Dəyər |
|---|---|---|
| Yanvar | Xurma | 12,6 |
| Fevral | Elektrik enerjisi | 19,4 |
| Mart | Fındıq ləpəsi | 13,7 |
| Aprel | Tomat (pomidor) | 24,2 |

### 2020

| Ay | Mal | Dəyər |
|---|---|---|
| Yanvar | Qızıl | 16,3 |
| Fevral | Pambıq mahlıcı | 19,5 |
| Mart | Tomat (pomidor) | 19,2 |
| Aprel | Tomat (pomidor) | 29,4 |

### 2021

| Ay | Mal | Dəyər |
|---|---|---|
| Yanvar | Xurma | 16,7 |
| Fevral | Qızıl | 24,7 |
| Mart | Pambıq mahlıcı | 31,4 |
| Aprel | Pambıq mahlıcı | 27,8 |

2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

## **2021-ci ildə aprel ayında** qeyri-neft sektoru üzrə **əsas ixracatçı subyektlərin reytinqi**

“İxrac İcmalı” tərəfindən qeyri-neft sektoru üzrə 2021-ci ilin yanvar-aprel ayları üzrə həyata keçirilən ixracla bağlı həm qeyri-dövlət, həm də dövlətə məxsus ixracatçı subyektlərin reytinqi tərtib edilmişdir.

2021-ci ilin yanvar-aprel ayları üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar: "MKT İstehsalat Kommersiya" MMC, "P-Aqro" MMC, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, "Baku Steel Company", "Sun Food" MMC, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC, "Metal Trader LTD" MMC, "Ram Beynəlxalq Nəqliyyat və Ticarət LTD" MMC, "Critical və “Aqrovest” MMC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına isə “Socar Polymer” MMC və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin “Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi” başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: "Azəralüminium" MMC, "Azergold" QSC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərenerji" ATSC, "Azərbaycan Dəmir Yolları" QSC, "Caspian Geo" MMC, "Azəripək" MMC, Naxçıvan MR Dövlət Energetika Xidməti.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.



## 2021-ci ilin **YANVAR-APREL AYLARINDA** qeyri-neft sektoru üzrə **QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ** (Ötən ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)



## 2021-ci ilin **YANVAR-APREL AYLARINDA** qeyri-neft sektoru üzrə **DÖVLƏTƏ MƏXSUS ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ** (Ötən ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2021 İXRAC İCMALI MAY




* “Socar Polymer” MMC dövlət-özəl sektor tərəfdaşlığı nəticəsində yaranan müəssisədir.

# 2021-ci ilin **YANVAR-APREL AYLARINDA "AZƏRKOSMOS" ASC 16,9 MİLYON ABŞ DOLLARI** dəyərində **XİDMƏT İXRAC ETMİŞDİR**

2021 İXRAC İCMALI MAY



Yeni nəsil xidmət ixracı hesab edilən peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri sahəsi xidmət ixracının şaxələnməsi istiqamətində mühüm rola malikdir.

2021-ci ilin yanvar-aprel aylarında "Azərkosmos" ASC tərəfindən dünyanın **27 ölkəsinə 16,9 milyon ABŞ dolları** dəyərində xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilib. "Azərkosmos" ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 91 faizini təşkil edib. 2021-ci ilin aprel ayında isə "Azərkosmos" ASC dünyanın **26 ölkəsinə 6,3 milyon ABŞ dolları** dəyərində xidmət ixrac edib.




**2021-ci ilin yanvar-aprel aylarında "Azərkosmos" ASC-nin xidmət ixrac etdiyi 5 əsas ölkə**

| Ölkə | Dəyər |
|---|---|
| ABŞ | 5,1 mln $ |
| Malayziya | 3,6 mln $ |
| Birləşmiş Krallıq | 3,3 mln $ |
| Fransa | 2,8 mln $ |
| BƏƏ | 579 min $ |



## 2021-ci ilin **yanvar-aprel aylarında** Azərbaycanda **xaricilər bank kartları vasitəsi ilə** **112,2 milyon** manatlıq əməliyyat aparmışlar

2021-ci ilin yanvar-aprel aylarında Azərbaycana dünyanın 134 ölkəsindən 162,9 min və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 3,3 dəfə az əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmiş və baş tutmuş səfərlər əsas etibarilə qeyri-turizm məqsədilə həyata keçirilmişdir.

Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən ölkəmizə gələnlərin 32,7 faizi Rusiya Federasiyası, 27,6 faizi Türkiyə, 16,7 faizi İran, 10,8 faizi Gürcüstan, 2,5 faizi Ukrayna, 1,1 faizi Böyük Britaniya, 1,0 faizi Belarus, hər birindən 0,7 faiz olmaqla Qazaxıstan və Özbəkistan, hər birindən 0,6 faiz olmaqla Türkmənistan və Almaniya, 0,5 faizi İtaliya, 4,5 faizi digər ölkələrin vətəndaşları olmuşdur. Gələnlərin 92,6 faizini kişilər, 7,4 faizini qadınlar təşkil etmişdir.

2020-ci ilin eyni dövrü ilə müqayisədə cari ilin yanvar-aprel aylarında Gürcüstandan gələnlərin sayı 8,6 dəfə, Türkmənistandan - 6,9 dəfə, Qazaxıstandan - 5,7 dəfə, Özbəkistandan - 3,8 dəfə, Rusiya Federasiyasından - 3,1 dəfə, Ukraynadan - 2,7 dəfə, Böyük Britaniyadan - 2,7 dəfə, Belarusdan - 1,8 dəfə, Türkiyədən - 1,5 dəfə, İrandan - 1,2 dəfə azalmışdır.

2020-ci ilin yanvar-aprel ayları ilə müqayisədə ümumilikdə körfəz ölkələrindən gələnlərin sayı 2,5 dəfə azalaraq 27,7 min nəfər, MDB ölkələrindən gələnlərin sayı 3,1 dəfə azalaraq 63,1 min nəfər, Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 2,6 dəfə azalaraq 5,9 min nəfər olmuşdur.

2021-ci ilin aprel ayında xarici vətəndaşların bank kartları vasitəsi ilə ölkəmizdə apardıqları əməliyyatların həcmi 28,3 milyon manat təşkil etmişdir. 2021-ci ilin yanvar-aprel aylarında isə əcnəbilər bank kartları vasitəsi ilə 112,2 milyon manatlıq əməliyyat aparmışlar.

Bu barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikada verilmişdir.

Azərbaycana gələn **XARİCİ VƏTƏNDAŞLARIN BANK KARTLARI VASİTƏSİ** ilə apardıqları əməliyyatlar (milyon manatla)

İXRAC İCMALI 2021 MAY

| | 2019 | 2020 | 2021 |
|---|---|---|---|
| Yanvar | 88,3 | 85,2 | 25 |
| Fevral | 85,3 | 72,9 | 25,5 |
| Mart | 98 | 53,9 | 33,4 |
| Aprel | 103,2 | 19,7 | 28,3 |
| **Cəmi** | 374,8 | 231,7 | 112,2 |

# 3

# AZEXPORT.AZ PORTALINA 2021-Cİ İLİN YANVAR-APREL AYLARINDA 164,2 MİLYON ABŞ DOLLARI MƏBLƏĞİNDƏ İXRAC SİFARİŞİ DAXİL OLMUŞDUR

Portala daxil olan İXRAC SİFARİŞLƏRİNİN **ümumi dəyəri**
**2 milyard 327 milyon** ABŞ dolları
təşkil etmişdir

2021-ci ilin yanvar-aprel aylarında Azexport.az portalına 164,2 milyon ABŞ dolları dəyərində ixrac sifarişləri daxil olmuşdur. 2021-ci ilin aprel aylarında Azexport.az portalına daxil olan ixrac sifarişlərinin dəyəri isə 33 milyon ABŞ dolları təşkil etmişdir.

2021-ci ilin aprel ayında Azexport.az portalına ən çox ixrac sifarişi pambıq, pomidor, kartof, soğan, toyuq əti, quru süd, biyan kökü, pambıq yağı, toyuq yumurtası, çay, mühərrik yağı, şərab, tikinti materialı, qənnadı məhsulu, bal, alma, tekstil, nar şirəsi, zəfəran, noxud, enerji içkisi və s. mallara daxil olmuşdur.

Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından 2021-ci ilin 30 aprel tarixinə kimi (52 ay ərzində) Azexport.az portalına dünyanın 145 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri **2 milyard 359 milyon ABŞ dolları** təşkil edib.

Azexport.az portalına daxil olan ixrac sifarişləri barədə daha dolğun məlumat isə təqdim olunan infoqrafikalarda verilmişdir.

## AZEXPORT.AZ PORTALINA daxil olan İXRAC SİFARİŞLƏRİNİN MƏBLƏĞİ




2017-ci il - **475 mln $**

2018-ci il - **514,1 mln $**

2019-cu il - **595,7 mln $**

2020-ci il - **610,8 mln $**

2021-ci il

Yanvar - **53,9 mln $**

Fevral - **35,3 mln $**

Mart - **42 mln $**

Aprel - **33 mln $**

2021-ci il - **164,2 mln $**



Son **52 ay** ərzindəki sifarişlərin cəmi - **2 359,8 mln $**

# 2021-ci ilin APREL AYINDA AZEXPORT.AZ PORTALINDAN İXRAC SİFARİŞİ ALAN ƏSAS MALLAR

Pambıq



Pomidor



Kartof



Soğan



Toyuq əti



Quru süd



Biyan kökü



Pambıq yağı



Toyuq yumurtası



Çay



Mühərrik yağı



Şərab



Tikinti materialı



Bal



Qənnadı məhsulu



4

# 2021-Cİ İLİN MAY AYINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİNDƏN 15,3 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ QEYRİ-NEFT İXRACI HƏYATA KEÇİRİLMİŞDİR

"Bir Pəncərə" İxraca Dəstək Mərkəzinə 2021-ci ilin may ayı ərzində hüquqi və fiziki şəxslər tərəfindən **85 dəfə müraciət** daxil olunub. Ümumilikdə 91 ədəd sertifikat (51 ədəd mənşə, 32 ədəd baytarlıq, 1 ədəd Qida təhlükəsizliyi sertifikatı, 7 ədəd CİTES) verilib.

Cari ilin may ayı ərzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə **15,3 (15,295,183.05) milyon** ABŞ dolları dəyərində ixrac həyata keçirilmişdir. Hüquqi və fiziki şəxslər tərəfindən qiymətli külçələr, nar, alma, qarışıq şirələr, narşərab, çaxır, bitki tərkibli kərə yağı, tibbi zəli, iri və xırdabuynuzlu heyvanların daxili orqanları, iribuynuzlu heyvan dərisinin sənayedə kəsilməsi nəticəsində yığılan faydasız tullantılar, iribuynuzlu heyvan bağırsağı, pendir, qatılaşdırılmış süd, akvakultur üsulu ilə yetişdirilmiş nərəcinsli balıqların kürüsü, dondurulmuş toyuq ayaqları, dondurma, oksigen maye qazı, polad armatur yayması, polad məftil, polad boru, polad kvadrat pəstahın ixracı həyata keçirilib.

Yuxarıda adı çəkilən məhsullar arasında qiymətli külçələr (76,6%), polad borular (12,9%), pendir (5,7%), iribuynuzlu heyvanın daxili orqanları (1%) dondurulmuş toyuq ayaqlarının (0,8%) ixracı üstünlük təşkil etmişdir. Sertifikat verilən məhsullar 15 ölkəyə- İsveçrə (76,6%), Rusiya (10,8%), Türkiyə (6,6%), Gürcüstan (4%), Belarus (0,9%), digər ölkələrə (1,1%)-(Qazaxıstan, Avstraliya, İspaniya, İtaliya, Gürcüstan, ABŞ, Özbəkistan, BƏƏ, Fil Dişi Sahili, Almaniya) ixrac edilmişdir. İxrac olunan məhsulların hava nəqliyyatı ilə (76,9%), avtomobil ilə (14,4%), dəmiryolu nəqliyyatı (8,5%), qarışıq nəqliyyat ilə ixracı isə (0,2%) təşkil edir.

2021-ci ilin **MAY AYINDA** “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi vasitəsilə həyata keçirilən **İXRACIN STATİSTİKASI** (milyon ABŞ dolları ilə)






# Cari ilin **MAY AYINDA "Bir Pəncərə" İxraca Dəstək Mərkəzinin** təqdim etdiyi **SERTİFİKATLARIN ÖLKƏLƏR ÜZRƏ BÖLGÜSÜ**






## Cari ilin **MAY AYINDA "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi** vasitəsilə
## ƏN ÇOX İXRAC OLUNAN MƏHSULLARIN BÖLGÜSÜ



## Cari ilin **MAY AYINDA "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi** vasitəsilə ixrac edilən məhsulların **NƏQLİYYAT ÜZRƏ BÖLGÜSÜ**

2021 İXRAC İCMALI MAY



**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN**
**"BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ**

AZ 1073, Bakı ş., Yasamal r., Q. Xəlilov küç., 47
47, Khalilov str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Г. Халилова, 47

Tel.: (+994 12) 521 28 48
E-mail: info@ereforms.org

www.iqtisadiislahat.org
www.ereforms.org
www.ecoreform.az

/iqtisadiislahat

/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi






Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən "İxrac İcmalı" jurnalı 11 yanvar 2018-ci il tarixində N4160 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə daxil edilmişdir.



iqtisadiislahat.org
ereforms.org
ecoreform.az

/iqtisadiislahat

Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.org


